# Demokratiya pərdəsi altında fitnəkarlıq

## ABŞ ölkələrə təsir dairəsini genişləndirmək üçün ən çirkin əməllərə əl atır

**"Amerika Birləşmiş Ştatlarının dünyanın jandarmı rolunu oynaması, bir çox regionlarda münaqişələrə, müharibələrə rəvac verməsi, "rəngli inqilablar" gerçəkləşdirməsi, ölkələri bir-birinə qarşı qoyması danılmaz faktdır və artıq bütün bəşəriyyət bunu görür. İnsan hüquqlarını, söz və ifadə azadlığını, demokratiyanı əlində bayraq edən Amerika, əslində, dünyada sülhün, əmin-amanlığın, təhlükəsizliyin tərəfdarı deyil. Onun məqsədi müstəmləkəçilik, kiçik dövlətləri əlinə almaq, ölkələrin var-dövlətini talan etməklə öz gücünü, təsir dairəsini genişləndirməkdir".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev deyib. Komitə sədri qeyd edib ki, bunun üçün ABŞ ən çirkin əməllərə əl atıb və atmaqdadır. Bu ölkə demokratiya pərdəsi altında dövlətləri qarşıdurmalara, müharibələrə sürükləyir, haqq-ədalət, müstəqillik uğrunda mübarizə aparanları susdurur, antidemokratik siyasətini həyata keçirir. O, bu sahədə özünün yaratdığı, demokratiya, insan hüquqları, cəmiyyət birlikləri adı altında formalaşdırdığı təşkilatlardan istifadə edir və onlara külli miqdarda maliyyə vəsaiti ayırır.

Tahir Rzayevin sözlərinə görə, ABŞ-nin Beynəlxalq İnkişaf Agentliyi (USAİD) bu baxımdan xüsusilə fərqlənir və təşkilat müstəqil ölkələrin daxili işlərinə, siyasi proseslərə müdaxilə edilməsində, hakimiyyətlərin təsirlərə məruz qoyulması və devrilməsi strategiyasının hazırlanıb həyata keçirilməsində xüsusi rol oynayır: "Əsas vəzifəsi guya xarici ölkələrə mülki-humanitar yardım, demokratik inkişafı stimullaşdıran proqramlar icra etmək, azad sözə, mətbuata, insan haqlarına dəstək vermək olan bu təşkilat, əslində, bütün fəaliyyəti dövründə şantajla, ara qarışdırmaqla, separatizmə, təcavüzə dəstək verməklə tanınıb. Müxtəlif ölkələrdə təxribat planları hazırlayan, hakimiyyətləri devirmək üçün demokratiya oyunları oynayan, insanları mətbuat, söz, din azadlığı altında aldadıb yoldan çıxaran, vətəndaş müharibələri törədən USAİD-in maliyyə vəsaiti kifayət qədərdir. 2023-2025-ci illərdə müxtəlif ölkələrdə demokratiyanın, vətəndaş cəmiyyəti quruculuğunun inkişafına 10 milyard dollara yaxın vəsaitin ayrılması təşkilatın geniş imkanlara malik olmasından xəbər verir. Təəssüflər olsun ki, ayrılmış külli miqdarda vəsaitlər uzun illər insanların xoşbəxtliyinə, ölkələrin inkişafına deyil, insan qətllərinə, faciələrə, qırğınlara, qarşıdurmalara sərf edilib". Komitə sədri vurğulayıb ki, ABŞ xarici ölkələrə, xüsusilə onunla razılaşmayan, müstəqil siyasət yeridən dövlətlərə qarşı həmişə aqressiv mövqe sərgiləyib və nəzarətini gücləndirmək məqsədilə özünün rəsmi dairələrindən əlavə USAİD kimi təşkilatlardan da istifadə edib. USAİD-in direktoru Samanta Pauer tərtib etdiyi "Demokratiya doktrinası"nda yeni elementləri irəli sürməklə belə qənaətdədir ki, bu doktrina ABŞ-yə demokratiya istəyi olan ölkələrə diqqətini artırmağa imkan verəcək. Bu o deməkdir ki, həmin ölkələrdə "rəngli inqilablar"a, "demokratik" üsyanların dəstəklənməsinə imkan verilməlidir. Məhz buna görə də ABŞ təmsilçiləri demokratik inkişafa xidmət edən layihələri doğru yolda olan QHT və KİV-ə deyil, daha çox məkrli məqsədlər daşıyan qeyri-legitim, qeyri-qanuni təşkilatlara yönəldir və onların fəaliyyətlərini genişləndirirlər.

USAİD-in Azərbaycanda 1991-ci ildən fəaliyyət göstərdiyini xatırladan komitə sədri deyib ki, ötən illər ərzində o yalnız pis tərəfdən özünü göstərib, bir çox xoşagəlməz qalmaqallarda adının hallanması ilə fərqlənib və ölkədə baş verən demokratik inkişafa heç bir dəstək nümayiş etdirməyib. "Əksinə, USAİD qonşu Gürcüstanda törətdiyi hadisələri Azərbaycanda da təkrarlamağa çalışıb. O, siyasi hakimiyyətə qarşı təzyiq vasitəsi kimi öz şəbəkələrini genişləndirməyə səy göstərsə də, buna müvəffəq olmayıb. Bu təşkilatın Gürcüstanda olduğu kimi, Azərbaycanda geniş şəbəkə yaratmasına imkan verilməyib. Azərbaycan dövləti USAİD, NED və digər qurumların niyyətini vaxtında qiymətləndirib, onların fəaliyyəti daim nəzarətdə saxlanılıb. Çünki bu qurumların fəaliyyəti məkrli olduğu qədər də, gələcək üçün təhlükəlidir. Belə ki, 2014-cü ildə USAİD Azərbaycanda müstəqil medianın inkişafı üçün 2,4 milyon dollar məbləğində qrant müsabiqəsi elan etsə də, bu məbləğ qurumun lazım bildiyi media orqanlarına verilib, əsl iştirakçılar kənarda qalıblar. Mükafatlandırılanlar isə şantaja, təxribata, qarşıdurmalara meyilli QHT və şəxslər olub", - deyə komitə sədri əlavə edib.

T.Rzayevin sözlərinə görə, Azərbaycanda törədilən xoşagəlməz hallarda, təxribatlarda, yalan, böhtan kampaniyasında fərqlənən NİDA, "Dalğa" kimi təşkilatlar da vaxtilə USAİD, NED və digər beynəlxalq təşkilatlardan külli miqdarda maliyyə vəsaiti əldə edib və bunu bilavasitə məkrli məqsədlərə - dövlətin imicinə ziyan gətirilməsinə, icazəsiz nümayişlərin keçirilməsinə, qarayaxma kampaniyalarına yönəldiblər. Bu günlərdə ABŞ-nin Beynəlxalq İnkişaf Agentliyinin "Abzas Media" xəbər portalına da xeyli miqdarda vəsait ayırdığı məlum olub. Faktlar göstərir ki, "Abzas Media"nın əməkdaşları Qərbə, eyni zamanda ABŞ-yə məxsus 20-dən çox təşkilatla gizli əməkdaşlıq ediblər. Əməkdaşlıq edilən təşkilatlar arasında USAİD də var.

ABŞ-nin Mərkəzi Kəşfiyyat İdarəsinin ayrı-ayrı bölgələrdə və ölkələrdə öz planlarını həyata keçirmək üçün USAİD-dən istifadə etdiyini nəzərə çarpdıran deputat bildirib ki, bu təşkilat Azərbaycanda nəinki müxalifətə, qeyri-legitim təşkilatlara, "radikal feministlərə", azlıqların nümayəndələrinə, cinayətdə əli olub özünü demokrat adlandıranlara da dəstək verir və onları fəallaşdırmağa çalışır: "ABŞ hər vəchlə Azərbaycanda öz agentura şəbəkəsini genişləndirməyə səy göstərir. Bu günlərdə ABŞ-nin Azərbaycandakı səfirliyinin bu ölkədə təhsil almış məzunlarla görüş keçirmək cəhdləri buna nümunədir. Ancaq bu cəhdin qarşısı vaxtında alınıb və bundan sonra da alınacaq. Nizamnaməsində fəaliyyəti xarici ölkələri mülki-humanitar yardımlarla təmin etmək olan USAİD, əslində, öz vəzifəsini tamamilə kənara qoyub Amerikanın müstəqil ölkələrə qarşı antidemokratik siyasətini həyata keçirməklə məşğuldur. Belə olmasaydı o, 30 il işğal altında olan torpaqlarımızın, viran edilən şəhər və kəndlərimizin, bir milyondan çox qaçqın və köçkünlərimizin taleyini, acınacaqlı həyatını dilə gətirər, əsir düşən minlərlə soydaşımızın həyatına acıyar, minalanmış ərazilərdə həlak olanların vəziyyətini düşünər, xalqımızın haqlı səsinə səs verərdi".

Komitə sədri vurğulayıb ki, ABŞ və onun maliyyələşdirdiyi beynəlxalq təşkilatlar, başda USAİD olmaqla təcavüzkar Ermənistanı dəstəkləyir, quldurlara, insan qatillərinə maliyyə yardımı ayırır, faşistləri silahlandırır, onları yeni müharibəyə hazırlayırlar. Əslində, bu, demokratiya bayrağı altında dövlətimizə, eləcə də digər ölkələrə qarşı fitnəkarlıq, beynəlxalq normalara hörmətsizlik, dövlətləri və xalqları qarşı-qarşıya qoymaq, bəşəriyyətə xəyanət etməkdir. Sözsüz ki, bu yol təhlükəli, insanlığa zidd və bəşəriyyətin gələcəyinə saygısızlıq yoludur. Bütün dünya bunu artıq bilir və Vaşinqtonun əməllərinin şahidi olmaqla bu mənfur siyasətə qarşı mübarizə aparmaq əzmindədir. Azərbaycan da bu mübarizənin ön sırasındadır. Çünki ölkəmizə qarşı edilən ədalətsizliklər, haqqımızın tapdalanması, müstəqilliyimizin sarsıdılmasına yönəldilən cəhdlər mübarizəni gücləndirməyi tələb edir.

Prezident İlham Əliyev dəfələrlə xatırladıb ki, biz haqq-ədalət, torpaqlarımızın azadlığı, suverenliyimizin bərpa olunması, xalqımızın xoşbəxtliyi və gələcəyi uğrunda mübarizə aparırıq və bu mübarizədə qalibik. Ərazi bütövlüyümüzü qorumaq üçün daha güclü olmalıyıq.

Tahir Rzayev onu da qeyd edib ki, Azərbaycan güclü, iqtisadi cəhətdən inkişaf edən, beynəlxalq aləmdə nüfuz qazanan, sülhə, əmin-amanlığa, əməkdaşlığa arxalanan bir dövlətdir. Düşmənin hər cür cəhdinin, təxribatının qarşısını almağa qadirdir. ABŞ-nin çirkin niyyətləri baş tuta bilməz və Azərbaycanda USAİD kimi təşkilatlara yer yoxdur, buna imkan verilməməlidir. Çünki Azərbaycan haqq yolundadır, xalqımıza, dövlətimizə qarşı yönələn hər bir cəhdin qarşısı qətiyyətlə alınacaq.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan. - 2023.- 30 noyabr, № 261.- S.6.